STEAM AZƏRBAYCAN

SAF 2025
BEYNƏLXALQ
STEAM AZƏRBAYCAN FESTİVALI



# CUBESAT

## KATEQORİYASI

## SEÇİM MƏRHƏLƏSİNİN QAYDALARI

BAKI 2025

# SAF2025 - CubeSat

## Seçim mərhələsi.

**1.1.** Hər bir komanda  verilmiş “**Təqdimat**” faylınıdalı tələbləri doldurmalıdır.Təqdimat zamanı hər bir komanda tibbi əlcəkdən istifadə etməlidir.

**1.2.** Seçim mərhələsində iştirak etmək üçün digər formada göndərilən təqdimatlar qəbul **edilməyəcəkdir.**

**1.3.** Komandanın hazırladığı CubeSat-ın ölçüləri qeyd olunmalıdır və şərti olaraq xətkeş ilə göstərilməlidir.

**1.4.** İcazə verilən ölçülər 10x10x10sm olmalıdır. İstifadə ediləcək material 3D çap və ya taxta elementlərdən olmalıdır. Bununla yanaşı CubeSat-ın daxili görünəcək şəkildə hazırlanmalıdır.

**1.5.** CubeSat hazırlamaq üçün istifadə olunmalı dövrə elementlərinin siyahısı kateqoriyanın final qaydalarında verilmişdir.



*(sadə numunə)*

**1.6.** Hər bir komandanın Peyk nümunəsi hazırlanıb təqdim edilməlidir.

**1.7.** Peyk modeli 3 hissədən ibarət olmalıdır:

**1.8.** **Gövdə** - gövdə hissəsi qızılı və ya aluminium rəngdə olmalıdır. Gövdə hissəsində CubeSat-ın yerləşdirilməsi üçün yer olmalıdır.

**1.9.** **Qanadlar** – Günəş lövhələri görünüşdə olmalıdır. Burada həm real həmdə foto panellərdən istifadə etmək olar.

**1.10.** **Antena**- Hər bir modelin üzərində ən azı 1, ən çox 3 ədəd antena modeli olmalıdır.

**1.11.** Peyk maketinin icazə verilən  ölçüləri uzunluq 80-110sm, hündürlük 40-60sm, eni 40-60 sm olmalıdır. İstifadə ediləcək material sərbəst seçilməlidir. Hazırlanan modelin asılması və ya 1 mərkəzi nöqtəvi dayağın üzərində olması göstərilməlidir. Hazırlanan Peyk modeilin daxilində CubeSat-ın daxil olması üçün yer olmalıdır və bu prosses foto ilə göstərilməlidir.



*(sadə numunə)*

**1.12.** Məlumat göndərilməsi - Hər bir komanda minimum 1 sensor məlumatını simsiz göndərmə ilə məlumat göndərməlidir və bu prossesin foto-video faylını təqdim etməlidir.

**1.13.** Hər bir komandanın hazırladığı CubeSat-ın ən azı 1 günəş paneli olmalıdır və onun işlədiyini göstərən aydın şəkili olmalıdır.

**1.14.** Hazırlanan  video material 1080p keyfiyyətində 60-90 saniyə müddətində və link formasında olmalıdır.

**1.15.** Video materialın giriş hissəsində iştirakçılar öz "**ad, soyad və komanda adını daha sonra "SAF2025 CubeSat kateqoriyası üçün təqdimat edirəm**" deyərək başlamalı və layihə haqqında yazılan bütün fikirlər öz əksini tapmalıdır.

**1.16.** Hazırlanan video materialda əlavə mahnı və effektlər yerləşdirmək qadağandır.